# İbtidai pillə müəllimləri üçün test

## Təbiətşünaslıq

Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Test iki hissədən ibarətdir - peşə biliyi və akademik qabiliyyət.

Testin maksimal xalı 53-dür.

Hər bir tapşırığın təlimatını diqqətlə oxuyun, tapşırığı yerinə yetirmək üçün nə tələb olunduğunu yaxşı düşünün və sonra cavabı seçin. Test üzərində işlədikdə verilmiş xəritələrdən istifadə edin.

**Nəzərə alın:**

- Əgər düzgün cavabla bərabər səhv cavabı da qeyd etsəniz, xal ala bilməyəcəksiniz.

Testdə işləmək üçün sizə 4 saat verilir.

Uğurlar arzulayırıq!

Növbəti səhifəyə keçmək və geri qayıtmaq üçün klaviaturadakı düymələrdən istifadə edə bilərsiniz



# Fənn biliyi

(1) **1.** Canlı orqanizmlər üçün xarakterikdir:

I – Özünə bənzər nəsil törətmək

II –Böyümə və inkişaf

III – Qidalanma və tənəffüs

ა) Yalnız I və II;

ბ) Yalnız I və III;

გ) Yalnız II və III;

დ) I, II və III.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **2.** Canlı təbiəti öyrənmək üçün, hansı cihazdan istifadə edirlər?




ა) Yalnız A və B;

ბ) Yalnız A və C;

გ) Yalnız B və C;

დ) A, B və C.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **3.** Hansı rəqəmlə işarə olunmuş orqan bitkinin qeyri-cinsi çoxalmasında **<u>iştirak etmir</u>**?




ა) 1

ბ) 2

გ) 3

დ) 4

(1) **4.** Üzmə zamanı hansı orqanların işi aktivləşir?

I – Ağciyərlərin    II – Ürəyin    III – Skelet əzələlərinin

ა) Yalnız I və II;

ბ) Yalnız I və III;

გ) Yalnız II və III;

დ) I, II və III.

(1) **5.** Şəkildə göstərilən tülkü necə mühitdə yaşayır?



ა) Səhrada;

ბ) Açıq düzənliklərdə;

გ) Bataqlıq yerlərdə;

დ) Meşə mühitində.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **6.** Hansı prosesi həyata keçirmək, insana ətraf mühiti qorumaqda kömək edir?

I – Ətraf mühitin insektisidlərlə işlənməsi

II – İkinci dərəcəli resursların yenidən dövriyəyə qoşulması

III – Radioaktiv maddələrin torpağa basdırılması

ა) Yalnız I;

ბ) Yalnız II;

გ) Yalnız III;

დ) I və II.

(1) **7.** Yarpaqda ağızcıqlar vasitəsilə hansı proseslər gedir?

I – Qazlar mübadiləsi II – Suyun buxarlanması III – Oksigenin ətraf mühitə ayrılması

ა) Yalnız I və II;

ბ) Yalnız I və III;

გ) Yalnız II və III;

დ) I, II və III.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **8.** Sadalanan orqanizmlərdən hansı II dərəcəli istehlakçıdır?

ა) Fil;

ბ) Dələ;

გ) Qurbağa;

დ) Ceyran.

(1) **9.** Bitki çoxala bilər:

I – Sporla II – Toxumla III – Gövdə ilə

ა) Yalnız I və II;

ბ) Yalnız I və III;

გ) Yalnız II və III;

დ) I, II və III.

(1) **10.** Amfibilər üçün hansı əlamət xarakterikdir?

1. Kürü ilə çoxalma
2. Nəsil qayğısına qalma
3. Soyuqqanlılıq
4. Qəlsəmələrlə tənəffüs

ა) 1 və 2;

ბ) 3 və 4;

გ) 1 və 3;

დ) 2 və 4.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **11.** Sadalananlardan hansı qıcıqlanmaya (hissetməyə) misaldır?

I –Günəbaxan çiçəklərinin günəşə tərəf çevrilməsi

II – Buğda toxumundan bitkinin cücərməsi

III – Toxunduqda mimozanın yarpaqlarının bükülməsi

ა) Yalnız I və II;

ბ) Yalnız I və III;

გ) Yalnız II və III;

დ) I, II və III.

(1) **12.** Qan dövranı sistemində:

ა) Arterial qan orqanizmdən zərərli maddələri xaric edir;

ბ) Venoz qan bütün orqanlara karbon qazını aparır;

გ) Arterial qan orqanlara qida maddələrini aparır;

დ) Venoz qan orqanlardan oksigeni xaric edir.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **13.** Hansı latın hərfi ilə I dərəcəli istehlakçının kəlləsi işarə olunmuşdur?



A B C

ა) Yalnız A;

ბ) Yalnız B;

გ) Yalnız C;

დ) A və B.

(1) **14.** Parabüzən düşmənlərdən özünü qorumaq üçün, adaptasiyanın hansı formasından istifadə edir?

I – Xəbərdaredici rəngdən

II – Qoruyucu rəngdən

III – Mimikriyadan

ა) Yalnız I;

ბ) Yalnız II;

გ) Yalnız III;

დ) II və III.

(1) **15**. İllüstrasiyada müxtəlif bitkinin meyvəsi və toxumu rəqəmlərlə işarə olunmuşdur. Onlardan hansı heyvanların köməyi ilə yayılır?



**1** **2** **3** **4**

ა) 1

ბ) 2

გ) 3

დ) 4

(1) **16.** Hansı rəqəmlə işarə olunmuş sümük birbaşa onurğanın fəqərələrinə birləşir?




ა) 1

ბ) 2

გ) 3

დ) 4

(1) **17.** Kərtənkələlərin sayının azalması illüstrasiyada əks olunan qida zəncirində nəyə səbəb olacaq?



ა) İlanların sayının artmasına;

ბ) Bayquşların sayının azalmasına;

გ) Çəyirtkələrin sayının azalmasına;

დ) Qarğıdalının miqdarının artmasına.

(1) **18.** Hansı xəstəliklər birhüceyrəli orqanizmlər tərəfindən törədilir?

1. Malyariya    2. Qrip    3. Vəba    4. QİÇS

ა) 1 və 3;

ბ) 1 və 4;

გ) 2 və 3;

დ) 2 və 4.

(1) **19.** İllüstrasiyaya əsasən müəyyən edin, hansı qan damarı zədələnmişdir (I) və zərərçəkənə qanaxmanı dayandırmaq üçün necə kömək etmək lazımdır (II)?



| | I | II |
|---|---|---|
| ა) | Arteriya | Yaranın üstündən elastik rezinlə bağlamaq |
| ბ) | Vena | Yaranın altından elastik rezinlə bağlamaq |
| გ) | Arteriya | Yaranın üstünə təmiz örtük qoymaq |
| დ) | Vena | Yaranın üstünə sıx sarğı qoymaq |

(1) **20.** Diaqramda bərabər hərəkət edən dörd cismin hərəkət müddəti və sürətləri təsvir olunmuşdur. Hansı iki cismin qət etdiyi məsafə bərabər ola bilər?




ა) 1 və 2-nin;

ბ) 1 və 3-ün;

გ) 1 və  4-ün

დ) 2 və 3-ün.


1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **21.** Cədvəl verilmişdir:

| Maddə | Ərimə temperaturu °C-də | Qaynama temperaturu °C-də |
|---|---|---|
| X | -40 | 30 |
| Y | -10 | 80 |

temperaturu (-20)°C-dən 100°C-dək dəyişdilər. Cədvəldə verilən hər bir maddənin aqreqat halı neçə dəfə dəyişər?

ა) Hər ikisinin bir dəfə;

ბ) Hər ikisinin iki dəfə;

გ) X-in  bir dəfə,  Y-in iki dəfə;

დ) X-in iki dəfə,  Y-in bir dəfə;

(1) **22.** Şəkildə ona cismi daxil etmədən əvvəl və daxil etdikdən sonra mayeli menzurka, eyni zzamanda həmin cism elektrontərəzidə təsvir olunmuşdur. Cismin sıxlığı nəyə bərabərdir? Cismi tərəziyə qoymazdan əvvəl tərəzi sıfırda idi.




ა) 5 $q/sm^3$

ბ) 7,6 $q/sm^3$

გ) 8 $q/sm^3$

დ) 14,4 $q/sm^3$


1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **23.** Sadalanan planetlərdən hansının təbii peyki Avropadır?

ა) Marsın;

ბ) Yupiterin;

გ) Saturnun;

დ) Veneranın.

(1) **24.** Fiziki hadisələr zamanı maddə dəyişməz qalır, kimyəvi hadisələr zamanı isə dəyişir və başqa bir maddə əmələ gəlir. Aşağıdakı hadisələrdən hansı fiziki və hansı kimyəvi hadisədir?

I – Dəmirin maqnitləşməsi

II – Dəmirin paslanması

ა) I – fizikidir II – kimyəvidir;

ბ) I – kimyəvidir II – fizikidir;

გ) Hər ikisi fizikidir;

დ) Hər ikisi kimyəvidir.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **25.** Otaq temperaturunda A, B və C mayeləri olan sınaq şüşələri buzlu suya salındı. Bu zaman hansı maddə bərkiyəcək?

Bu maddələrin ərimə temperaturları haqqında məlumat aşağıdakı cədvəldə verilir:

| **Maddə** | **Ərimə temperaturu,** ℃ |
|---|---|
| **A** | −5 |
| **B** | +5 |
| **C** | +15 |

ა) Yalnız A;

ბ) Yalnız A və B;

გ) Yalnız B və C;

დ) Hər üçü

(1) **26.** Aşağıdakı sübutlardan hansı **doğru deyil**?

I – Atom molekullardan təşkil olunub

II – Molekullar atomlardan təşkil olunub

III – Maddə molekullardan təşkil olunub

ა) Yalnız I;

ბ) Yalnız II;

გ) Yalnız I və III;

დ) Yalnız II və III.

(1) **27.** Tapşırıqda hansı okeanın xəritəsinin fraqmenti verilib?




ა) Sakit;
ბ) Atlantik;
გ) Hind;
დ) Cənub.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **28.** Seysmoloq hansı fotoda göstərilib?













1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **29.** Xəritə fraqmentinə əsasən, B nöqtəsinin dəniz səviyyəsindən təxminən neçə metr yüksəklikdə yerləşdiyini hesablayın?




ა) 131
ბ) 133
გ) 135
დ) 137


[1](#) [2](#) [3](#) [4](#) [5](#) [6](#) [7](#) [8](#) [9](#) [10](#) [11](#) [12](#) [13](#) [14](#) [15](#) [16](#) [17](#) [18](#) [19](#) [20](#) [21](#) [22](#) [23](#) [24](#) [25](#) [26](#)
[27](#) [28](#) [29](#) [30](#) [31](#) [32](#) [33](#) [34](#) [35](#) [36](#) [37](#) [38](#) [39](#) [40](#) [41](#) [42](#) [43](#) [44](#) [45](#)

(1) **30.** Xəritə fraqmentinə əsasən, hansı mülahizə *səhvdir*?




**Miqyas** 1:10 000

ა) 1 və 2 torpaq sahələri çayın sol sahilində yerləşir;
ბ) Körpüdə duran müşahidəçi üçün quyu şimalda yerləşir;
გ) Tsivi çayının sağ sahili boyunca yarğandır;
დ) Xəritədə enliyarpaqlı meşə göstərilib.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **31.** Sadalananlar arasında Sidney şəhərindən hansı şəhərə qədər daha qısa, birbaşa məsafədir?




ა) Tbilisiyə qədər;

ბ) San-Pauluya qədər;

გ) Londona qədər;

დ) San-Fransiskoya qədər.


1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **32.** Xəritədə qeyd edilən yerlərdən hansı pinqvinkimilərin yayıldığı təbii areal ***deyil***?



ა) 1
ბ) 2
გ) 3
დ) 4




1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **33.** Xəritədə qeyd edilən yerlərdən hansı yüksək seysmik aktiv zonadır?




ა) 1
ბ) 2
გ) 3
დ) 4


1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **34.** Aşağıdakı Venn diaqramlarından hansı doğrudur? Diaqramlar növbəti sxemlə tərtib edilib: 1. Səyahəti maliyyələşdirən ölkə; 2. Səyahətin əsas məqsədi; 3. Birinci səyahətin keçirildiyi əsr; 4. Səyahətin nəticəsi.

ა)




ბ)




გ)




დ)




1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **35.** Sxemdə Mantiya hansı latın hərfi ilə qeyd olunub?




ა) A
ბ) B
გ) C
დ) D


[1](#) [2](#) [3](#) [4](#) [5](#) [6](#) [7](#) [8](#) [9](#) [10](#) [11](#) [12](#) [13](#) [14](#) [15](#) [16](#) [17](#) [18](#) [19](#) [20](#) [21](#) [22](#) [23](#) [24](#) [25](#) [26](#)
[27](#) [28](#) [29](#) [30](#) [31](#) [32](#) [33](#) [34](#) [35](#) [36](#) [37](#) [38](#) [39](#) [40](#) [41](#) [42](#) [43](#) [44](#) [45](#)

(1) **36.** Aşağıda Günəş sisteminin qaz nəhəngləri qrupunun planetlərinin afeliləri (planet orbitində Günəşdən maksimal şəkildə uzaqda yerləşən nöqtə) verilib. Yupiter planetinin afelisi hansıdır?

ა) 816,62 mln. km;

ბ) 1 513,32 mln. km;

გ) 3 004,41 mln. km;

დ) 4 553,94 mln. km.

(1) **37.** Sxemdə təsvir edilən hansı hərəkət  güclü və dağıdıcı zəlzələ zamanı daha çox təhlükəlidir?





1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **38.** Tapşırıqda verilən sxemdən irəli gələrək, sadalananlar arasında hansı mülahizə orbitdə Yer Kürəsinin A mövqeyi ilə münasibətdə doğrudur?




ა) Şimal yarımkürəsində qışdır;
ბ)Yerdə təqvimlə sentyabrın 23-dür;
გ) Cənub yarımkürəsində yaydır;
დ) Şimal qütbündə Qütb günüdür.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **39.** Verilən foto hansı təbii sərvətin hasilatını əks etdirir?



ა) civənin;

ბ) qızılın;

გ) neftin;

დ) manqanın.

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

# Akademik qabiliyyət

## Oxunmuş mətnin dərk edilməsi

*Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilən mətnə görə düzgün variantı seçin.*
*Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətnin, eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi "basmaqla" asanlaşdıra bilərsiniz.*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

I Valideynlərin övladları ilə getdikcə daha az vaxt keçirdikləri müasir reallıqda mənəvi təhsilin effektiv yollarını axtarmaq xüsusilə vacibdir. Belə bir fikir var ki, uşaqların düzgün və səhv, ədalət və ədalətsizlik barədə nəzərləri böyüklərin tədrisinin birbaşa nəticəsini təqdim etmir. Uşaqlara mənəvi davranışın üstünlüklərini dərk etməyə imkan verən yollardan biri kimi nağılları nəzərdən keçirirlər.

II Nağıllar metaforlar vasitəsilə uşağın inkişafında mühüm sosial və mənəvi funksiyanı yerinə yetirə bilirlər. Nağıldakı vizual obrazlar reallığı örtülü şəkildə əks etdirir, düzgün seçim etməyə dəstək verən metaforları təqdim edirlər. Belə bir metaforlar uşaqlara mühüm mənəvi və həyati dərsləri obrazlı və emosional cəhətdən cəlbedici forma ilə, onlar üçün aydın dildə çatdırır. Nağıllardakı metaforlar uşaqlara mücərrəd anlayışları və prinsipləri qavramaqda yardım edə bilər. Başqa cür onlara aydın olmur, çünki mücərrəd təfəkkür bacarıqları hələ formalaşmayıb. Metaforlar mənəvi cəhətdən haqlı və haqsız hərəkətləri obrazlara çevirir. Müsbət metafor mənəvi davranışı cəlbedici və maraqlı edir, mənfi metafor isə oxucuya əxlaqsız davranışın nəticələrini göstərir və oxşar davranışlardan çəkinməyə təkan verir. Məsələn, "qaranlıq meşə" çaşqınlıq, qorxu, çətinliklər metaforudur, "əjdaha" - özündə məğlub ediləsi zəifliklərin metaforusı, "qızıl alma" - qəhrəmanın maneələrlə dolu böyük yol keçdiyi çətinliklə əldə edilən xoşbəxtlik metaforudur.

III Uşağa mənəviyyatı aşılatdıran nağılın sonunda ədalətin/xeyirxahlığın qələbəsi deyil, uşağın öz-özünü eyniləşdirdiyi cazibədar qəhrəmandır. Bu eyniləşdirməyə görə uşaq öz təsəvvüründə qəhrəmanla birlikdə bütün sınaqlardan keçir və xeyirin qələbəsini onunla birlikdə qeyd edir. Nağılların uşaqcasına qavranılması yaşa görə fərqlənir, nağıl heç vaxt "birbaşa" dərk edilmir. Hər bir uşaq nağılın mövzusunu öz yaşına, biliyinə, təcrübəsinə, fiziki, emosional, koqnitiv və mənəvi inkişaf səviyyəsinə, canatmasına və konkret anda konkret uşağın qarşısında duran çağırışlara uyğun olaraq dərk edir.

Suallara keçid: 40 41 42 43 44

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

IV Araşdırmalardan birində 3-dən 9 yaşına qədər uşaqlar arasında, onlara məlum olmayan metaforları anlamaq qabiliyyəti araşdırılıb. Məlum olub ki, bu qabiliyyət yaş artdıqca təkmilləşsə də, hər yaşdan olan uşaqlara metaforları başa düşmək üçün vizual obraz/illüstrasiya lazım gəlib.

V Nağılda uşaq konkret səhnədə hərəkəti görür və bu da ona hadisələr arasında səbəb-nəticə əlaqələrini dərk etməkdə və reallığa keçirməkdə yardım edir. Eləcə də nağıl emosiya yaradır və bu da uzunmüddətli vaxt ərzində məlumatı yadda saxlamaq ehtimalını artırır.

Suallara keçid: 40 41 42 43 44

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **40. Birinci abzasa görə çıxarılan əsas nəticə nədir?**

ა) Valideynlər övladları ilə getdikcə daha az vaxt keçirirlər;

ბ) Mənəvi davranışın üstünlüyünün dərk edilməsi böyüklərin tədris nəticəsidir;

გ) Mənəvi təhsilin birbaşa olmayan yollarından biri kimi nağılları nəzərdən keçirirlər;

დ) Uşaqların mənəvi təhsil səviyyəsi getdikcə daha aşağı düşür.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **41. Nağılda təqdim edilən metafor reallıq haqqında dəyərli dərsi uşaqlara hansı yolla verə bilir?**

ა) Nağılda metaforlar inanılmaz hadisələrə realistik məna qazandırır və uşaq üçün maraqlı olur;

ბ) Metafor vasitəsilə mücərrəd mənəvi prinsiplər əyani obrazlar və emosional cəhətdən cəlbedici hərəkətlər kimi təqdim edilir;

გ) Mənfi metafor mənəvi cəhətdən ədalətsiz davranışı uşaq üçün cəlbedici edir;

დ) Müsbət metaforlar vasitəsilə təqdim edilən hadisələr əyləncəli məna qazanır və uşaq üçün asanlıqla başa düşülən olur.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **42. Nə üçün nağıl uşağa valideynin və ya müəllimin birbaşa göstərişindən daha güclü təsir göstərir?**

ა) Nağılda xeyir hər zaman şər üzərində qələbə çalır və bu da uşağa aydın dildə çatdırılır;

ბ) Uşaq nağılı öz yaşına, təcrübəsinə, koqnitiv və mənəvi inkişaf səviyyəsinə uyğun olaraq qavrayır;

გ) Uşaq yaşında metaforlar daha asanlıqla başa düşülür, nəinki birbaşa söylənilən göstərişlər;

დ) Uşaq özünü nağıl qəhrəmanı ilə eyniləşdirir, onunla birlikdə nağılın qəhrəmanı olur və bu və ya digər davranışın haqlılığını bu yolla daha yaxşı dərk edir.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

**1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26**
**27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45**

(1) **43. Dördüncü abzasda təqdim edilən araşdırma nəticəsi sadalanan mülahizələrdən hansının arqumenti ola bilər?**

ა) Uşaqların mənəvi inkişafının yeganə mənbəyi nağıllarda təqdim edilən metaforlardır;

ბ) Tövsiyə olunur ki, uşaqların tədris prosesində mücərrəd ideyaların ötürülməsini obrazlı material müşayiət etsin;

გ) Uşaqların mücərrəd ideyaları və mənəvi dilemmaları dərk etmək qabiliyyətləri artıq erkən yaşlarından var;

დ) Uşaqlar nağılın əsas ideyasını "birbaşa" başa düşməkdə çətinlik çəkirlər, bunda onlara onların bilik və təcrübəsi kömək edir.

Mətinin  I səhifəsinə qayıdış
Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(1) **44. Sadalananlar arasında hansı yol nağılların uşaqlara mənəvi davranışı anlamaqda kömək etdikləri əsas təsir yoludur?**

ა) Emosional iştirak və vizual metaforlar;

ბ) Nağıl dilinin sadəliyi - aydın ötürülən ideyalar;

გ) Nağılın ənənəvi strukturu - xoşbəxt son;

დ) Nağıl qəhrəmanı ilə yaşca yaxınlıq və konkret səhnə.

Mətinin  I səhifəsinə qayıdış

Mətnin II səhifəsinə qayıdış

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26
27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40 41 42 43 44 45

(9) **45. Analitik yazı**

Tapşırıqda verilmiş iki bir-birinə zidd məsələ ilə tanış olun. Onlardan birinin xeyrinə seçim edin, seçiminizi əsaslandırmaq üçün arqumentlər gətirin və məsələnin həllinin ikinci mümkün yolunu tənqidi şəkildə qiymətləndirin.

a) Müəllim mütəmadi olaraq ev tapşırıqlarını verməlidir ki, şagirdlər fənn üzrə bilik əldə etsinlər və praktik bacarıqlarını inkişaf etdirsinlər.

b) Fənn biliklərinin əldə edilməsi və praktik bacarıqları inkişaf etdirmək üçün məktəb və dərs prosesi birmənalı şəkildə effektiv vasitəni təqdim edir. Bu da şagirdin ev tapşırıqları ilə mütəmadi yüklənməsi məsələsini gündəmdən çıxarır.

İnşa ən azı 120 sözü əhatə etməlidir.